**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ Q-BS/006**

**Bakı şəhəri** **“21” sentyabr 2021-ci il**

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş məhsul idxalının qadağan edilməsi haqqında**

2021-ci ilin 6-10 sentyabr tarixlərində İran İslam Respublikasından Afshin Ghoje Biglo Agha Mohammad Biglo və Saleh Ehsas Gojeh Bagloo (Bazargani Shahramın sifarişi ilə) təsərrüfat subyektləri tərəfindən Azərbaycana ixrac edilən kartof məhsullarında mütəmadi olaraq karantin tətbiq edilən kartof güvəsi (*Phthorimaea operculella*) aşkar edilir. Bu barədə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən 13 nömrəli Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartın tələblərinə uyğun olaraq İran İslam Respublikasının Milli Bitki Mühafizəsi Təşkilatına notifikasiya verilmiş, həmin subyektlər tərəfindən Azərbaycana kartof ixracının dayandırılması və baş verən uyğunsuzluqların araşdırılaraq nəticəsi barədə məlumat verilməsi xahiş edilmişdir.

Bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-13-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** İran İslam Respublikasının Milli Bitki Mühafizəsi Təşkilatı tərəfindən uyğunsuzluqların araşdırılması tamamlanana və aradan qaldırılana qədər Afshin Ghoje Biglo Agha Mohammad Biglo və Saleh Ehsas Gojeh Bagloo təsərrüfat subyektlərinin istehsalı olan kartof məhsulunun Azərbaycan Respublikasına idxalına müvəqqəti qadağa qoyulsun.

**2.** Agentlik tərəfindən əvvəllər kartof məhsulu üzrə verilmiş idxal karantin icazələri həmin təsərrüfat subyektlərinə münasibətdə etibarsız hesab edilsin.

**3.** Bu Qərarın aidiyyəti üzrə göndərilməsi Agentlik aparatının Bitki Sağlamlığı şöbəsi tərəfindən təmin edilsin

**Bitki sağlamlığı şöbəsinin müdiri,**
**Respublikasının baş dövlət fitosanitar müfəttişi** **Taleh Şəmiyev**